No: 01 2025
http://doi.org/0000-0000-0000-0000
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# REJİSSOR TƏHLİLİ PYESƏ MÜASİR YANAŞMA

**Kamran Quliyev**

ORCID: 0009-0009-9846-0905
kamranquliyev@ndu.edu.az

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.

**Yazışılan müəllif:* kamranquliyev@ndu.edu.az

## XÜLASƏ

Məlum məsələdir ki, teatr tamaşasının əsasında dramaturji material dayanır. Lakin tamaşanın müəlliifi rejissor olduğu üçün dramaturqun ortaya qoyduğu problemin müasirliyini mütləq önə çəkməlidir. Rejissor pyesə müəllifin fikirlərini təkzib etmədən müdaxilə etmək hüququna malikdir. Öz ali məqsədini təcəssüm etdirmək üçün rejissor çox zaman proloq və epiloqdan istifadə edir. Proloq və epiloq rejissor fikrini təcəssüm etdirən əsas vasitə kimi ilk növbədə dramaturji materialdan doğmalıdır. Bunun üçün əsərin bədii obrazını müəyyənləşdirmək başlıca şərtdir. Bədii obraz müəyyənləşdikdən sonra proloqu müəyyən etmək daha asan olur. Proloq ilk növbədə rejissorun tamaşaçıya nə deyəcəyi haqqında qıssa arayış, yəni rejissorun qaldırdığı problemin hansı formada təqdim ediləcəyi xəbəridir. Epiloq isə qaldırılan problemin həllinin nəticə göstəricisidir. Məqalədə ustad rejissorların iş metodundan nümunələr gətirərək fikri tamamlamağa çalışmışam. Bundan əlavə öz tamaşalarımın rejissor konsepsiyasını təhlil edərək proloqun yaranma prosesini əyani olaraq göstərməyə cəhd etmişəm. Həmçinin, tamaşanın bədii obrazının və rejissor fikrinin daha təsirli və aydın olması üçün köməkçi vasitələrin (dekor, işıq, musiqi) əhəmiyyətini göstərmişəm.

**Açar sözlər:** *Teatr və dramaturgiya, proloq və epiloq, müasir problem, köməkçi vasitələr.*

## GİRİŞ

Hər bir tamaşanın əsasında dramaturgiya dayanır. Hər bir rejissor öz maraq dairəsində olan, bədii cəhətdən mükəmməl, həyat həqiqətləri ilə zəngin, müasir dövrün problemlərini daha dolğun əks etdirən, obrazların xarakteri bütöv və mükəmməl olan əsərə üstünlük verir. Gələcək tamaşanın ali məqsədini müəyyənləşdirmək üçün rejissor pyesi əsaslı təhlil etməlidir. Pyesin rejissor təhlili bir neçə mərhələdən keçir.

Sovet dövründə "Dəli yığıncağı"nı cəhalət, avamlığa qarşı yazılmış tənqidi realizm nümunəsi kimi təhlil və xarakterizə edirdilər. Rejissor yanaşması da İslam mentalizminin üzərində qurulurdu. Cəmiyyətdə gedən proseslərə yanaşma tərzində fərqli düşünənlərə dəli damğası vuraraq cəmiyyətdə kənara ataraq ələ salır və təhqir edirdilər. Bu Mirzə Cəlilin üzdə olan məqsədidir ki, cəhalət milləti əzazil, küt məxluqa çevirib.

Əgər əsərin yazıldığı tarixə nəzər salsaq bizə çox mətləblər aydın olar. Əsər yazıldığı dövrdə Azərbaycana Sergey Mironoviç Kirov ad-soyadlı bir rus kommunisti rəhbərlik edirdi. İndi gəlin “Dəli yığıncağı”nın cərəyan etdiyi məkana nəzər salaq görək bu məmləkətə rəhbərlik edən Həzrəti Əşrəf kimdir. Müəllif xalqa rəhbərlik edən bu personajı cəmi üç dəfə səhnəyə gətirir və bütün gəlişlərində öz naibində tələbi üç dəfə “Pul,pul,pul” deməklə bitir.

Gəlin görək bəs doktor Lalbyüz kimdir. Doktor Lalbyüzün məmləkətə gəlişi Həzrəti Əşrəfə əyalətin varlılarından pul yığmaq üçün münbit şərait yaradır. Naib vasitəsilə varlı tacirlərə sifariş gəlir ki, dəlilərin müalicəsinə lazım olan xərcləri qarşılamaq üçün pulu tacirlər verməlidir. Əvvəl tacirlərin etirazına baxmayaraq lazım olan vəsait toplanır. Lakin məlum olur ki, doktor müalicə etmək üçün gəlməyib. Dəliliyi törədən səbəbləri araşdırmaq məqsədilə gəlib.

2005-ci ildə Naxçıvan teatrında hazırladığımız “Dəli yığıncağı” tamaşasının elmi məsləhətçisi akademik İsa Həbibbəylinin tövsiyəsi ilə tamaşanın ali məqsədini, xalqın milli mentalitetini, adət-ənənəsini, hətta dilini belə bilmiyənlərin xalqa rəhbərlik etməsi nəticəsində Xalqın düşdüyü faciəvi vəziyyət üzərində formalaşdırdıq. Tamaşanın bədii obrazına çevrilən bu ideya həm rejissor yozumunda (xalq artisti Kamran Quliyev), həm səhnə tərtibatında (əməkdar rəssam Əbülfəz Axundov), həm bəstələnən orjinal musiqilərdə (bəstəkar,əməkdar incəsənət xadimi Kamal Əhmədov), həmdə aktyor oyununda vəhdət təşkil edərək özünü göstərdi. Bütün səhnə boyu döşəmədən tavana və yanlara, arxaya qədər əhatə edən burulğana bənzər səhra təsüratı yaradan ümumi görünüş. Sanki tufanın qovub hərəsini bir tərəfə atmış olduğu daxmalar, kimsəsiz yetim məxluqatı xatırladır. Rəngli işıqlar vasitəsilə faciənin qatılığını andıran məqamlar ictimai mənşəyindən asılı olmayaraq xalqın düşdüyü bəlanı aydın şəkildə təcəssüm edir. Müəyyən məqamlarda hazırlanmış xüsusi yüksəklikdən xalqın düşdüyü rəzil vəziyyəti qürur hissi ilə seyr edən Həzrəti Əşrəf sanki törətdiklərindən zövq alır. Beləliklə araşdırma, təhlil vasitəsilə müəllifin alt qatda yatan ali məqsədini üzə çıxararaq tamaşanın bədii obrazına çevirmək mümkün oldu.

“Müəllif fikrini tamaşaçılara düzgün çatdırmaq üçün, rejissor özgə fikrini özününkü etməli, özünün şəxsi fikri kimi çatdırmalıdır. Bunun üçün rejissor ilk növbədə pyesi təhlil edir. Bu təhlil işi nədən ibarətdir? Müəllifin fikirler dünyasına daxil olmaq üçün, onun bütün hisslər aləmini dərk etmək üçün müəllifi, onun yazdığı pyesləri, tərcümeyi-halını, yaşadığı mühiti, dövrü dərindən öyrənmək gərəkdir. Rejissor bu dövrdə bir çox problemləri həll etməli olur. Bunlardan müəllifin yaşadığı dövrün ziddiyətlərində onun tutduğu mövqeyi, mənəvi, ictimai və estetik görüşləri, zövqü, ətrafında yaşayan insanlara münasibəti, əsərlərində, gördükləri hadisələri necə əks etdirilməsi, hansı insanlar haqqında yazması, onun fikrini cəlb edən problemlərə münasibəti və şairə” (Sevda Teymurova “Rejissor sənətinin əsasları” Bakı -2019. Səh88)

Gətirdiyimiz sitatdan da göründüyü kimi dramaturji materialın təhlili çox mühüm mərhələlərdən keçir. Rejissor aktyor heyəti ilə görüşənə qədər sadalanan bütün məsələləri həll edərək müəyyən

nəticəyə gəlməlidir. Gəlinən ilkin nəticə inkişaf edərək rejissor fikrinə, tamaşanın ali məqsədinə çevrilməlidir. Təbii ki, tamaşanın ideyası müəllifdən alınır. Lakin əsərə müasir yanaşma tələb edir ki, rejissor pyesi daha dərindən təhlil edərək bu günümüz üçün aktual olan problemin üzə çıxara bilsin. Klassik dramaturgiyada bütün dövrlər üçün aktual olan problemlər öz əksini bu və ya digər formada tapmış olur. Sadəcə olaraq qaldırılan problemin formaca müasirliyini üzə çıxarmaq lazımdır. Bunun üçün rejissor ilk növbədə yaşadığı dövrün bəşəri problemlərini müşahidə etmək bacarığını özündə formalaşdırmaq, cəmiyyət içərisində ictimai mənşəcə müxtəlif olan insanların qaldırmağ istədiyi problemə münasibətini öyrənməlidir. Gələcək tamaşanın uğuru qaldırılan problemin aktuallığından çox aslıdır.

Dramaturgiyamızın banisi Mirzə Fətəli Axundovun dramaturgiyasına nəzər yetirməklə fikrimizi əyani şəkildə izah edə bilərik. Dramaturq hər bir əsərində qaldırılan problemlər bu gündə mövcuddur. “ Hacı Qara” komediyasında əsas tənqid hədəfi olan qaçaq malçılıq bu gündə mövcuddur sadəcə forma dəyişib. Yəni jandarma dönüb polis olub, qaçaq malçılıq isə olduğu kimi mövcuddur, parça əvəzində daha zərərli narkotika daşınır. “Sərgüzəşti Vəziri xanı Lənkəran” əsərində bivec xanı ölkələri uçruma aparan liderlə, rüşvətxor əyanları isə rüşvətxor dövlət məmurları əvəz edir. Axundov əsərlərinə müraciət edən rejissorun qarşısında duran əsas məsələ formasını dəyişən problemə münasibət bildirərək həll yollarını göstərmək və təmsil etdiyi teatrın mövqeyini nümayiş etdirməkdir. Bunun üçün rejissor öz konsepsiyasında problemə yanaşmanın təcəssüm formasını müəyyənləşdirməlidir.

Görkəmli dramaturq Cəfər Cabbarlı yaradıcılığının son dövrləri sovet dövrünə təsadüf etdiyi üçün dövrün ideoloji tələbinə uyğun olaraq sosializm realizm deyilən ideologiya çərçivəsində işləməyə məcbur idi. Bədii cəhətdən çox güclü olan, milli mentaliteti özündə etiva edən insanların hadisələrə münasibətinə münasibətini orjinal boyalarla təcəssüm edən əsərlərdə də bu günlə səsləşən məqamlar üzə çıxarmaq mümkündür. Bunun üçün əsər üzərində rejissor redaktə aparmalıdır. Klassikaya toxunmaq olmaz düşüncəsini qıran görkəmli rejissor Vaqif İbrahimoğlu öz dəlilləri ilə bunun yanlış olduğunu sübut etdi. O, dövrün ideoloji tələbi çərçivəsində yazılan əsərlərdə qaldırılan problemlər başqa formada təzahür edir.

Bu gün kalxoz, salxoz yoxdur amma ona alternativ fermer təsərrüfatı var. Bu günün Baloğlanları, Şərifləri, Dövlət bəyləri cilidlərin dəyişsədə əqidə baxımından eynilik təşkil edir. Özündə qlobal bəşəri problemlər daşıyan Hüseyn Cavid dramaturgiyası bu baxımdan bütün dövrlər üçün aktual olan problemləri təcəssüm edir. “İblis” faciəsində müharibənin törətdiyi fəsadlar bu gün üçündə aktualdır. “Şeyx Sənan” faciəsində ülvi məhəbbətə sərhəd çəkən dini ayrı seçkilik bu gün müasir formada, xalqlar arasında yarana biləcək qarşılıqlı anlaşmanın qarşısını kəsir.

“Rejissor pyesin ideasını və müəllifin ali məqsədini yaşadığı dövrün ictimai-siyasi və mədəni vəzifələri nöqteyi nəzərindən duyulmalı, pyesi bu günkü tamaşaçını mənəvi tələbləri, zövqü və məqsədləri baxımından qiymətləndirilməlidir. O özü üçün aydınlaşdırılmalıdır ki, tamaşaçılar həmən

tamaşadan nə götürülməlidir, onun nə cür qiymətləndirəcəklər, tamaşaçılara hansı hissləri fikirləri aşılamaq istəyir.

Bunların hamısı birlikdə öz ifadəsini rejissorun özünün az-çox dəqiq ifadə edilmiş ali məqsədində tapmalıdır, bu isə gələcəkdə tamaşanın ali məqsədinə çevriləcəkdir." (B.Y.Zaxarov, "Aktyor və rejissor sənəti". Bakı -1984.səh250)

Beləliklə hazırlanan hər bir tamaşa müasir dövrün problemlərini əks etdirirsə insanların belə tamaşalara marağı da artacaq və teatr tamaşaçı sarıdan problem yaşamayacaq. Həm də teatra bir əyləncə yeri kimi deyil, bir tərbiyə məktəbi, maarifçiliyi təbliğ edən məkan kimi baxılacaq. Müasirlik problemini həll etməyi bacaran teatr daim diqqət mərkəzində olacaq.

## ƏDƏBİYYAT SİYAHISI:


1. B.Y. Zaxava "Aktyor və rejissor sənəti". Bakı – 1984
2. Əli Əmirli "Draam və ssenari yaradıcılığı". Bakı – 2019
3. Fikrət Məlikov "Pedaqoq rejissorların tamaşa üzərində iş prosesi". Bakı - 2006
4. K.S. Stanislavski " Mənim sənət həyatım" (tərcümə Rza Təhmasib). Bakı – 1963
5. Q. Kisti "Stanislavski məktəbi əsasında aktyor tərbiyəsi". Bakı – 1979
6. Mehdi Məmmədov "Rejissor sənəti". Bakı – 1971
7. Sevda Teymurova "Rejissor sənətinin əsasları". Bakı – 2019



## SUMMARY

## DIRECTORIAL ANALYSIS: A MODERN APPROACH TO THE PLAY

Kamran Guliyev

It is well known that a theatrical performance is based on dramatic material. However, since the director is the author of the performance, they must emphasize the relevance of the issue presented by the playwright. The director has the right to intervene in the play without contradicting the author's ideas. To embody their ultimate vision, the director often uses a prologue and an epilogue.

The prologue and epilogue should primarily emerge from the dramaturgical material as fundamental tools for expressing the director's ideas. For this, it is essential to determine the artistic image of the work. Once the artistic image is defined, determining the prologue becomes easier. The prologue primarily serves as a brief introduction for the audience, providing an insight into the director's perspective on the problem and how it will be presented. The epilogue, on the other hand, serves as an indicator of the resolution of the problem raised.

In this article, I have attempted to substantiate my argument by presenting examples of the working methods of master directors. Additionally, I have analyzed the directorial concepts of my own productions to visually demonstrate the process of creating a prologue. Furthermore, I have highlighted the significance of auxiliary tools (such as set design, lighting, and music) in making the artistic image of the performance and the director's vision more impactful and comprehensible.

**Keywords:** *Theater and dramaturgy, prologue and epilogue, modern issues, auxiliary tools.*

РЕЗЮМЕ

**РЕЖИССЕРСКИЙ АНАЛИЗ: СОВРЕМЕННЫЙ ПОДХОД К ПЬЕСЕ**

Камран Кулиев

Известно, что в основе театрального спектакля лежит драматургический материал. Однако, поскольку автором постановки является режиссер, он должен непременно подчеркнуть актуальность проблемы, поставленной драматургом. Режиссер имеет право вмешиваться в пьесу, не опровергая мыслей автора. Для воплощения своей высшей цели режиссер зачастую использует пролог и эпилог.

Пролог и эпилог, являясь основными средствами выражения режиссерской идеи, в первую очередь должны проистекать из драматургического материала. Для этого необходимо определить художественный образ произведения. После определения художественного образа становится легче установить пролог. Пролог, прежде всего, представляет собой краткое введение для зрителя, то есть сообщение о том, в какой форме будет представлена поднятая режиссером проблема. Эпилог же является показателем решения поднятой проблемы.

В данной статье я постарался обосновать свою точку зрения, приводя примеры методов работы мастеров-режиссеров. Кроме того, я проанализировал режиссерские концепции собственных постановок, чтобы наглядно продемонстрировать процесс создания пролога. Также я отметил значение вспомогательных средств (декорации, свет, музыка) для более выразительного и четкого раскрытия художественного образа спектакля и режиссерской идеи.

**Ключевые слова:** *Театр и драматургия, пролог и эпилог, современные проблемы, вспомогательные средства.*